“Ey oğul! Mən sənə bir neçə kəlmə öyrədəcəm: Allahı qoru ki, (yəni günahlardan çəkin, yalnız ona ibadət et) Allah da səni qorusun. Allahı qoru ki, Onu öz qarşında görəsən. Bir şey istədikdə, Allahdan istə. Kömək istədikdə, yenə də Allahdan kömək istə

Əbul-Abbas Abdullah bin Abbas (Allah onların hər ikisindən razı olsun) demişdir: Bir gün mən minik üzərində Rəsulullahın (sallallahu aleyhi və səlləm) arxa tərəfində idim, o, belə buyurdu: “Ey oğul! Mən sənə bir neçə kəlmə öyrədəcəm: Allahı qoru ki, (yəni günahlardan çəkin, yalnız ona ibadət et) Allah da səni qorusun. Allahı qoru ki, Onu öz qarşında görəsən. Bir şey istədikdə, Allahdan istə. Kömək istədikdə, yenə də Allahdan kömək istə. Bil ki, əgər bütün insanlar sənə xeyir vermək üçün bir yerə yığışsalar belə, Allahın (sənin qədərinə) yazdığından başqa sənə heç bir xeyir verə bilməzlər. Əgər sənə zərər vermək üçün bir yerə yığışsalar, yenə də Allahın (sənin qədərinə) yazdığından başqa sənə heç bir zərər verə bilməzlər. (Artıq) qələmlər qaldırılmış, səhifələr qurumuşdur”. Tirmizidən başqa bir rəvayətdə belə buyurulur: "Allahı qoru ki, Onu qarşında görəsən. Xoş gündə Allahı tanı ki, dar gündə, O, səni tanısın. Bil ki, səndən yan keçən bir şey, heç vaxt sənin başına gələ bilməzdi. Sənin başına gələn şey isə heç vaxt səndən yan keçə bilməzdi. Bil ki, qələbə səbirlə, çıxış yolu isə sıxıntı ilə birlikdədir və hər bir çətinliklə birlikdə asanlıq vardır”.

[Səhih] [رواه الترمذي وغيره]

İbn Abbas (Allah ondan və atasından razı olsun) xəbər verir ki, o azyaşlı olarkən Allah Rəsulu (sallallahu aleyhi va səlləm) ilə birlikdə minik üzərində idi. Allah Rəsulu (sallallahu aleyhi va səlləm) ona belə buyurdu: Sənə bəzi işlər və sözlər öyrədəcəyəm ki, Allah onların vasitəsilə sənə fayda verəcəkdir: Uca Allahı, əmrlərini yerinə yetirməklə və qadağalarından çəkinməklə qoru. Elə et ki, Allah səni daima itaət və ibadət olan əməllərdə görsün, günah və haramlar içində görməsin. Əgər sən belə etsən, Allah da bunun qarşılığında səni bu dünyanın bəlalarından, axirətin əzablarından qoruyar və hansı işə yönəlsən, orada sənə yardım edər. Əgər bir şey istəsən, yalnız Allahdan istə. Çünki istəyənlərin dualarına yalnız O, cavab verir. Əgər kömək istəsən, yalnız Allahdan kömək istə. Əmin ol ki, əgər yer üzündə olan bütün insanlar sənə fayda vermək üçün bir yerə toplaşsalar belə, onlar Allahın sənə yazdığından başqa fayda verə bilməzlər. Eyni şəkildə, əgər yer üzündə olan bütün insanlar sənə zərər vermək üçün bir yerə toplaşsalar belə, yenə də onlar Allahın sənə təqdir etdiyindən başqa zərər verə bilməzlər. Bil ki, bütün bunlar, Uca Allahın hikməti və elmi əsasında əvvəlcədən yazılıb və təqdir olunmuşdur. Allahın yazdığına heç bir dəyişiklik ola bilməz. Kim Allahın əmrlərini qoruyub, qadağalarından çəkinərsə, Uca Allah o qulun qarşısında olar, onun halını bilər, ona yardım edər və dəstək verər. Əgər insan rahatlıq vaxtında Allaha itaət edərsə, Allah

da onun üçün çətinlik zamanı rahatlıq və çıxış yolu bəxş edər. Hər bir qul, Uca Allahın onun haqqında yazdığı və təqdir etdiyi xeyir və şərrə razı qalmalıdır. İnsan, müsibət və çətinliklər qarşısında səbrli olmalıdır. Çünki səbr qurtuluşun açarıdır. Əgər çətinlik şiddətlənərsə, bu zaman Allahdan bir çıxış yolu gələr. Əgər bir çətinlik meydana gələrsə, Allah onun ardınca mütləq bir asanlıq verər.

http://www.sunnah.global/hadeeth/az/show/66522